# ƏHƏMİYYƏTİ UÇOT SİYASƏTİ VƏ İZAHLI QEYDLƏR

***31 dekabr 2025-ci il tarixinə***

## 1. *Giriş*

Hazırki maliyyə hesabatı 31 dekabr 2025-ci ildə tamamlanan il üzrə "Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması Qaydaları"na uyğun olaraq Ana Vətən Partiyası üçün tərtib edilmişdir.

## 2. *Partiya haqqında ümumi məlumat*

**Müəssisə, təşkilatın adı:** Ana Vətən Partiyası
**VÖEN:** 1500486991

**Sahə (fəaliyyət növü):** Digər qruplapa daxil edilməyən sair siyasi təşkilatların fəaliyyəti

**Hüquqi ünvanı** - Bakı şəhəri, N.Nərimanov r.,Ə.Əliyev ev3

**Faktiki ünvanı** Az 1141, Bakı səhəri,Yasamal rayonu,Akademik Şəfayət Mehdiyev küçəsi 93

Ana Vətən Partiyası Ədliyyə Nazirliyindən 01 sentyabr 1995-ci ildə qeydiyyatdan keçmiş və o vaxtdan da fəaliyyətə başlayıb.
Hesabat dövründə işçilərin orta sayı 9 nəfər olmuşdur.

## 3. *Missiya və məqsədləri:*

Ana Vətən Partiyasının vəzifələri Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü, unitarlığını qorumaq, ölkədə demokratik, hüquqi dövlət quruculuğu və onun dünyanın nüfuzlu subyektinə çevrilməsi uğrunda mübarizə aparmaqdan ibarətdir.
Ölkədə yüksək inkişaf etmiş məhsuldar qüvvəyə və kütləvi istehlaka əsaslanan sənaye cəmiyyəti qurmaq partiyanın əsas məqsəd və vəzifələrindəndir.

## 4. *Hesabatın hazırlamasının əsasları:*

Ana Vətən Partiyasının maliyyə hesabatı Azərbaycan Respublikası Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə

Qaydasına uyğun hazırlanıb. Maliyyə hesabatı Azərbaycan manatı ilə hazırlanmışdır.

***Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları***

Partiya mühasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparır. Maliyyə fəaliyyətinin nəticələri və maliyyə vəziyyəti haqqında hesabatlar hazırlanarkən mühasibat uçotunun hesablama metodu tətbiq olunmaqla aktivləri ilkin dəyər uçot prinsipinə əsaslanaraq hazırlanmışdır.

5. ***Maliyyə fəaliyyətinin ölçülməsinə maddi təsir göstərən spesifik uçot siyasətləri aşağıdakılardır***

I. ***Gəlirin tanınması:***

Üzvlük haqqları, İanələr və Dövlət büdcəsindən daxil olmalar.
Ana Vətən Partiyasının gəlir mənbələri dövlət büdcəsindən daxil ola biləcək gəlirlərdən ibarətdir.

II. ***İşçilərin mükafatlandırılması:***

İşçilərə hesablanmış əmək haqqı və s. gəlir haqqları onların aid olduğu hesabat dövrünə aid edilir. İllik məzuniyyət ödənişi cari dövrü üçün əmək haqqının olmasına əsasən hesablanır.

Bundan əlavə Ana Vətən Partiyası Azərbaycan dövlət sosial müdafiə fonduna hər bir işçinin əmək haqqından məcburi sosial sığorta haqqı , işsizlik haqqı və icbari tibbi sığorta haqqı ödəyir . Bu məbləğ yaranma tarixində xərc kimi tanınır.

III. ***Əsas vəsaitlər***

**Balans dəyəri:**

Əsas vəsaitlər onların satınalma dəyəri və onlara hesablanmış amortizasiya və dəyərdən düşmə məbləği çıxılmaqla göstərilir.

**Amortizasiya:**

Amortizasiya, Azərbaycanın Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi normalar əsasında əsas vəsaitin azalan qalıq metodu ilə hesablanmışdır. Əsas vəsaitlərin kateqoriyaları üçün istifadə olunan amortizasiya normaları aşağıdakılardır:

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır, bütün digər digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində illik amortizasiya dərəcələrini tətbiq etməklə həyata keçirilir. Maşınlar və avadanlıqlar: 20%, Nəqliyyat vasitələri: 25%, Hesablama texnikası (komputerlər): 25%, digər əsas vəsaitlər: 20%-dək

## IV. *Xarici valyuta*

Xarici valyuta ilə aparılan əməliyyat cari ildə olmamışdır.

## V. *Vergitutma obyekti*

Ana Vətən Partiyasının işçilərinin aylıq əmək haqqlarından Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun olaraq gəlir vergisi ödənilməmiş, sosial sığorta haqqı, işsizlik haqqı və icbari tibbi sığorta haqqı tutularaq aidiyyatı üzrə köçürülmüşdür.

## VI. *Xərclərin tanınması*

Partiya xərcləri tərtib olunan büdcələr əsasında alınan və büdcə çərçivəsində icra edilən ödənişlər zamanı tanınacaqdır.

## VII. *Uçot siyasətlərində dəyişikliklər*

Cari ildə siyasətlərində heç bir dəyişiklik edilməmişdir.

## *6. Maliyyə hesabatı üzrə qeydlər:*

1. Torpaq, tikili və avadanlıq:

01.01.2025–ci il tarixinə əsas vəsaitlərin qalıq dəyəri 1317.33 manat olmuşdur. İl ərzində əsas vəsaitlərin hərəkəti olmamışdır. Əsas vəsaitlərə 329.33 manat köhnəlmə hesablanmışdır. 31.12.2025-ci il tarixinə partiyanın əsas vəsaitlərinin qalıq dəyəri 988.00 manat olmuşdur.

2. Pul vəsaitləri və onların ekvivalentləri:

Hesabat ilinin sonunda Partiyanın kassa və bank hesabında qalmış pul qalığı aşağıdaki kimi olmuşdur.

| *Hesabın adı* | *Məbləğ* | *Valyuta növü* |
|---|---|---|
| Banklarda olan hesablaşma hesabları | 91.18 | AZN |
| **Cəmi Pul vəsaitləri** | **91.18** | **AZN** |

3. Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər):
Dövr ərzində hesablanmış xərclərdən əsas vəsaitlərinin qalıq dəyərini çıxdıqdan sonra qalan dəyərin xalis aktivlərdəki payını göstərir.
Bu hesabda yaranan məbləğ 1079.18 manat

4. Qısamüddətli kreditor borclar:

Partiyanın qısa müddətli dövrdə ödənilməsi tələb olunan işçilərə və sair kreditorlara olan borclarıdır. Hesabat dövründə qısamüddətli kreditor borclar tam şəkildə ödənilmişdir. Dövr sonuna qısamüddətli kreditor borclar yoxdur.

5. Üzvlük haqqı:
Hesabat dövründə üzvlük haqqları ödənilməmişdir.

6.Əmlakdan götürülən gəlir:
Hesabat dövründə Partiyanın daşınmaz əmlakı olmamışdır.

7. Tədbirlərdən,mətbu nəşrlərin və məqalələrin yayılmasından, gəlilrlə bağlı olan buna bənzər başqa fəaliyyətdən götürülən gəlir.
Hesabat dövründə Partiyanın tədbirlərindən, mətbu nəşrlərin və məqalələrin yayılmasından gəliri olmamışdır.

8. İanələr şəklində götürülən gəlir
Hesabat dövründə Partiya üzvlərindən və kənar şəxslərdən ianə daxil olmamışdır.

9. Seçki kompaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait.
Hesabat dövründə Partiyaya dövlət tərəfindən seçkinin keçirilməsi ilə bağlı xərclərin ödənilməsi məqsədi ilə və sait daxil olmamışdır.

10. Aşağı təşkilatların ödənişləri.
Hesabat dövründə aşağı təşkilatdan vəsait daxil olmamışdır.

11. Dövlət büdcəsindən ayrılan vəsait.

Hesabat Dövründə Partiya üçün Dövlət tərəfindən cari xərclərin ödənilməsi məqsədi ilə ayrılan vəsaitlərdir. Hesabat dövründə Partiyaya dövlət tərəfindən **304946,50 AZN** vəsait daxil olmuşdur.

| *Tarix* | *Vəsaiti ödəyən qurum* | *Məbləğ* | *Valyuta növü* |
|---|---|---|---|
| 17.01.2025 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 60545.45 | AZN |
| 18.03.2025 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 16127.80 | AZN |
| 18.04.2025 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 60545.45 | AZN |
| 21.06.2025 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 15279.60 | AZN |
| 14.07.2025 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 60545.45 | AZN |
| 23.09.2025 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 15534.00 | AZN |
| 16.10.2025 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 60545.45 | AZN |
| 19.12.2025 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 15823.30 | AZN |
| **CƏMİ** | | **304946,50** | AZN |

12. Xərclər

Partiya əsas fəaliyyətinin davam etdirilməsi üçün çəkilmiş əmək haqqı xərcləri, alınmış dəftərxana vazimatlarının xərcləri, kommunal xərcləri, amortizasiya xərcləri, partiyanın saxlanılmasına xərclənən digər xərclər və s. əməliyyət xərclərinin cəmini göstərir. Hesabat dövründə bu maddə **303053.71** AZN olmuşdur.

| *Cari xərclər* | *Məbləğ* |
|---|---|
| Əmək haqqı | 94316,28 |
| DSMF | 15645,43 |
| İşsizlikdən sığorta haqqı | 471,62 |
| İcbari tibbi sığorta haqqı | 1886,31 |
| İcarə haqqı | 16199,04 |
| Mətbuat xidməti | 2300 |
| Audit xidməti | 1000 |
| İşçilərin sığorta haqqı | 177,6 |
| Rabitə xərci | 754,29 |
| Texniki xidmət | 1509,24 |
| Kommunal xərclər | 1875 |
| Bank komissiya | 3166,57 |
| Amortizasiya ayırmaları | 329,33 |

| | |
|---|---|
| Nəqliyyat vasitəsinin təmir və yanacaq xərci | 6952 |
| Təmir xərcləri | 4500 |
| Dəftərxana malları | 2690 |
| Təsərrüfat xərcləri | 8725 |
| Ezamiyyə xərcləri | 24246 |
| Rayon təşkilatlarına ayrılan vəsait | 25500 |
| Maddi yardım | 24250 |
| Qurultayın keçirilməsinə çəkilən xərclər | 28960 |
| Mükafatların verilməsi | 22000 |
| Bayram, yubiley, ildönümü və digər tədbirlərin təşkili, hədiyyələr | 15600 |
| **YEKUN** | **303053,71** |

13. Risklərin idarə edilməsi

Partiya daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri, əməliyyat və hüquqi risklər ilə həyata keçirilir. Maliyyə risklərinə kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski, faiz dərəcəsi riski aid edilir. Maliyyə risklərinin idarə edilməsinin əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılmasına nail olmaq üçün daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

14. Hesabat tarixindən sonra baş vermiş hadisələr.

Hesabat tarixindən sonra Ana Vətən Partiyasının maliyyə hesabatlarına hər hansı bir təsir göstərəcək hadisələr baş verməmişdir.

**Rəhbər**
**Ana Vətən Partiyasının Sədri**
**Ağamalı Günay Fəzail qızı** ____________________

**Baş mühasib**

**Babayeva Aliya Rafikovna** ____________________

**27.02.2026** M.Y.